# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№380/5** **09 oktyabr 2025-ci il**

## “Audit Komitəsinin nümunəvi Əsasnaməsi”nin layihəsi barədə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində maliyyə şəffaflığının təmin edilməsi, maliyyə nəzarəti, o cümlədən müstəqil audit sahəsində beynəlxalq standartların tətbiqi ilə bağlı tövsiyələrini rəhbər tutaraq, “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunundan, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası”ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin, habelə Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.12-ci “Xarici təcrübə nəzərə alınmaqla Audit Komitəsinin nümunəvi Əsasnaməsinin yenidən işlənib hazırlanması” bəndinin icrası ilə əlaqədar Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış “Audit Komitəsinin nümunəvi Əsasnaməsi”nin yenilənmiş layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit Komitəsinin nümunəvi Əsasnaməsi” bəyənilsin (əlavə olunur).
2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bir həftə müddətində “Audit Komitəsinin nümunəvi Əsasnaməsi”nin “İqtisadiyyat” qəzetində dərc edilməsi məqsədilə məqaləni Palatanın rəhbərliyinə təqdim etsin.
3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir ay müddətində “Audit Komitəsinin nümunəvi Əsasnaməsi”nin aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına, müvafiq qurumlara və qanunvericiliyə əsasən audit komitələrinin yaradılması öhdəliyi nəzərdə tutulmuş təsərrüfat subyektlərinə göndərilməsini təmin edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, on gün müddətində bu qərarın və “Audit Komitəsinin nümunəvi Əsasnaməsi”nin mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**